BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Humanitar elmlər seriyası 2010*

# Ə.HAQVERDİYEVİN FACİƏSİNDƏ ÜMUMİLƏŞDİRMƏ VƏ FƏRDİLƏŞDİRMƏ

**M.HƏSƏNOVA (SARACLI)**
***Bakı Dövlət Universiteti***
***M.Hasanova@mail.ru***

*Məqalədə Ə.Haqverdiyevin faciə yaradıcılığı analitik təfəkkür süzgəcindən keçirilir və müəllifin fərdi yaradıcılıq üslubu dəyərləndirilir. Bu faciələrdə Ə.Haqverdiyevin apardığı ümumiləşdirmə və fərdiləşdirmənin nəticəsi olaraq yaratdığı tip və tragik xarakterlər göstərilir.*

Taleyini xalqın taleyi ilə bağlayıb, millətin yüksəlişini öz yüksəlişi sayan maarifçi mütəfəkkirlərimizdən biri də Ə.Haqverdiyevdir. On bir il ərzində ədəbiyyatımıza 4 kamil faciə əsəri bəxş edən Ə.Haqverdiyev bu faciələrdə mənən millətin dərdini, ağrısını yaşadı və ona əlac aramağa çalışdı.

Onun faciələrində müəllifi narahat edən məsələlər bunlardır:

- ən əvvəl yazıçının cəmiyyətdə öz mövqeyini itirən mülkədarlığın süqutunu təsvir etməsi. Mülkədar dudmanlarının dağılmasını onların şəxsi faciəsi, səhv əməllərinin nəticəsi kimi dəyərləndirilməsi.
- mülkədarlığın təbiətinə xas olan tipik xüsusiyyətləri ümumiləşdirməyə və fərdiləşdirməyə (əsasən ümumiləşdirməyə) çalışması;
- mülkədarlığın zülmünə qarşı maarifçi-ziyalı münasibətini qoyması. Maarifçi proqramla əxlaqi münasibətlərin həllinə çalışması. Xüsusilə, qadın hüquqsuzluğu məsələsinin önə çəkilməsi;
- insanlığın xislətində yaşayan «nəfsi əmmarənin» (əmredici nəfslərin) ifşasına çalışılması;
- hər cür despotizmin ifşa edilməsi.

Mülkədarlığın təbiətində olan hansı tipik xüsusiyyətlər ümumiləşdirilib?

- hər cür yeniliyə qarşı düşmən mövqe.
- istismarçı təbiətə maliklik.
- əxlaq düşkünlüyü, əxlaqsız və mədəniyyətsizlik.
- kasıba, məzluma, halal zəhmətlə dolananlara qarşı mənfi münasibətdə olmaq.

«Dağılan tifaq»da (1896) Nəcəf bəy tövbə və etiraz məqamında, tanrı dərgahında günahlarının bağışlanması üçün kömək umanda da tragik qəhrəman kimi müsbət obraza çevrilə bilmir.

Bunun səbəbi bir tərəfdən bəd əməllərinin nəticəsi olaraq düşdüyü vəziyyətdirsə, digər tərəfdən «özünüdərk» məqamının həddindən artıq gecikməsi idi.

Ə.Haqverdiyevin özünəməxsus orijinal üslubu faciələrində də diqqət çəkir.

Qeyd etdiyimiz kimi, Nəcəf bəy güclü müəllif ümumiləşdirməsi ilə yaradılmış konkret bəy tipidir. Buna baxmayaraq, müəllif ona özünə xas olan fərdi keyfiyyətlər

də vermişdir:

- həddən ziyadə bədxərc və israfçıdır. Ancaq bu israfçılığı faydasız işlərə sərf edir;
- şöhrətpərəstdir. Haqqında yazılmış şit bir mədhiyyəyə görə Mirzə Bayrama bir kisə buğda, bir kisə düyü, bir at bağışlayır. Məqsədi isə yalandan ad-san qazanmaq və saxta şöhrətə sahib olmaq idi: «Hər yerdə deyəcək ki, Nəcəf bəy mənə bir at peşkəş elədi. El ağzı, çuval ağzı, bir azdan Aləm danışacaqdır ki, Nəcəf bəy Mirzə Bayrama at bağışlayıb. Yabının da adını qoyacaqlar ərəb atı»;
- başqa bəylərlə müqayisədə qatı istismarçı təbiətə malik deyil.
- ailə başçısı kimi idarəçilik qabiliyyəti olmasa da, oğluna və övladına münasibətdə sərt və səhv mövqedədir.

Müəllif əsərdə Azərbaycan qadınlarının hüquqsuz vəziyyətini, acınacaqlı vəziyyətini Nəcəf bəyin arvadı Sona obrazı vasitəsilə ümumiləşdirmişdir: «Pərvərdigara, məgər sən övrət tayfasını yaradanda insan yaratmayıbsan? Xudaya, nə vaxtadək bizim dilimiz bağlı olacaq? Nə vaxt, görəsən, biz də ürəyimizdəkini açıq deyəcəyik, sözlərimiz ürəyimizdə qalıb dərd, vərəm olmayacaq? Yəni görəsən, o günləri görəcəyik, ya yox?».

Əsərdə Sona xanımın yuxusu, teyfi dramaturgiyamız üçün yeni olmaqla bərabər müəllif idealının daha dolğun təqdiminə xidmət edir.

«Bəxtsiz cavan» (1900) faciəsində maarifçiliyin işıqlı ideallarına mane olan mülkədarlığın vəhşi təbiəti başqa bir aspektdən səciyyəvi xüsusiyyətlərlə ümumiləşdirilmişdir. Bu əsərdə ağa-rəiyyət münasibətlərindəki antaqonizm açılmış, Fərhad kimi maarifçi ziyalı surəti bu antaqonizmə qarşı qoyulmuşdur. Eyni zamanda bu qəhrəman maarifçiliyin əsas missiyası olan inqilab deyil, təkamül yolunu seçənlərdən idi. Elm və maarif yolu ilə yaşadığı mühitin eybəcərliyini onlara dərk etdirmək istəyirdi. Lakin onun bu arzuları hələ cəmiyyət üçün «yad» göründüyündən qəbul olunan deyildi.

Fərhad gimnaziyada qazandığı mütərəqqi ideyalarla tərbiyə aldığı mühitin dini baxışlarını ümumiləşdirməyə çalışan bir müsəlman gənci, müsəlman ziyalısı kimi islam əxlaqına tapınan maarifçilərimizin ümumiləşdirilmiş obrazıdır.

Kəndlilər Hacı Səməd ağanın böyük müamilə ilə borc verməsini nəql edəndə Fərhad təəccüb edir: «Məgər mənim əmim belə iş görür? O ki, bir mömin, namaz qılan, şəriətdən baxəbər şəxsdir. O, niyə belə eləyir?».

«Bəxtsiz cavan»da «atalar» və «oğullar» arasında gedən fikir mübarizəsi tipik şəraitdə güclü ümumiləşdirmə vasitəsilə tam dolğunluğu ilə göstərilmişdir.

«Atalar» - Hacı Səməd ağalar köhnəlmiş cəmiyyətin, kütləşmiş beyinlərin müdafiəçiləridirlərsə, «oğullar» orta əsr ənənələrinə dözə bilməyən, mühafizəkar «atalara» qarşı mütərəqqi ideyalar irəli sürən, elmi və maarifi tətbiq edən xalqa, millətə yaxınlaşıb onun dərdlərinə şərik olan gözüaçıq gənclərdir.

Müəllif əsərdə hadisələrin milli zəmində, milli xarakterlər əsasında bədii həllinə çalışmış, buna «Hamletsayağı» nail olmuşdur.

Mənfi xarakterlər daha güclü olduğundan Fərhadın tragizmini qüvvələr nisbətinin qeyri-bərabərliyi yaradır. Haqverdiyevin ən qüvvətli pyeslərində ciddi fəlsəfi-ictimai problemlər daha çox əxlaqi mətləblərlə əlaqələndirilir (T.Mütəllimov). «Dağılan tifaq»dakı tarixi süqutu göstərəndə də, «Bəxtsiz cavan»da antaqonizmin mahiyyətini açanda da ədib əxlaqi səbəbləri ön plana çəkir, bunlara qarşı maarifçi-islahatçı proqramı qoyur.

«Pəri cadu» (1901) faciəsində insanları halallıqdan yayındıran pis nəfslərin ifşası verilir. «Nəfsi əmmarə»nin faciələrə səbəb olduğu göstərilir.

«Pəri cadu» bəzi ədəbiyyatşünaslar tərəfindən dram kimi qiymətləndirilsə də, biz professor X.Əlimirzəyevin mövqeyində duraraq əsəri faciə kimi dəyərləndiririk. Çünki əsərdə nəfsin törətdiyi faciələr bir deyil, bir neçədir. «Nəfsi əmmarə»nin faciə yağışına qərq etdiyi bu əsər faciə janrının bütün tələblərinə cavab verir.

Bu əsərlə Ə.Haqverdiyev Azərbaycan ədəbiyyatında simvolizmin əsasını qoymuşdur. Bir milli yazıçı kimi o, bir üsluba yaradıcı şəkildə yanaşaraq onu xalqın milli düşüncəsi, təfəkkür tərzi ilə bağlaya bilmişdir.

Müəllif göstərir ki, nəfsə uyan insan bəlalara düçar olar. Şamama cadu sifətində ortaya çıxan «nəfsi əmmarə» həm Qurbanın, həm Hafizə xanımın, həm də Pərinin təbiətində olub, onların hamısını məhv edir.

Pəri kimi gözəl, saf bir qadının ərinin ona xəyanət edib varlı bir qadınla evlənməsi, düşdüyü iztirablı həyat nəticəsində mənən dəyişərək kin-küdurət mücəssəməsinə çevrilməsini Ə.Haqverdiyev inandırıcı səhnələrlə göstərir. Qisas hissi onu Pəri caduya, neçə-neçə qəbahətlərin səbəbkarına çevirir. Allahın varlığını belə inkar edən bu qadın dərvişin nəsihətlərini qətiyyətlə rədd edib deyir: «İndi gərək yerin-göyün cəmi qara qüvvələrini köməyə çağıram, onlarla əlbir olub nəinki öz ərimdən, bəlkə cəmi bivəfa kişi tayfasından qisas alam. Yetişin harayıma, ey İblisin qoşunları».

Tanrı dərgahından qovulandan bəşərdən intiqam almaq təşnəsi ilə yaşayan İblis dərhal səhnəyə atılır: «Gedək mənimlə, ey insan qızı! Bu gündən sənin adın Pəri cadudur və bu əcinnələri də verirəm sənin ixtiyarına. Bu qoca qarı Şamama cadunu da sənə qulluqçu verirəm. Dünyanı gəzib harada mehriban ər-övrət var, arasına dava salıb, kişilərinə qan uddurub sənin yanına gətirsin. O qədər kişilərdən qisas alacaqsan, ta bir nəfəri sevincə. Ondan sonra qan içmək qurtaracaq və ömrünün axırınacan istirahət edəcəksən».

- Pəri cadu və Şamama cadu surətləri müəllif tərəfindən olduqca məharətlə işlənmiş, insan psixologiyasının təzadlı qüvvələrinə ayna tutan Haqverdiyev qüvvətli tip, tragik xarakter yarada bilmişdir. Bu qadınlar öz çirkin niyyətlərinə çatmaq üçün Qurbanı öz ailəsindən uzaqlaşdırıb (Pəri odunçu Qurbana vurulmuşdu), Hafizə xanım kimi zəngin, məkrli qadının əlində alətə çevirirlər. Miskin vəziyyətdə qalan arvadı Səlimədən bir parça çörəyi belə əsirgəyən, qapısına pənah gətirdiyi üçün onu döydürüb qovduran Hafizə xanımın hərəkəti Qurbanı mənən tərpədir: «Ay balam, yazıqdır, niyə qovursan? Elə bil allah yolunda verirsən, bir-iki manat verib yola salaydın».

«Nəfsi əmmarə»nin ilk qurbanı onun öz ailəsi olur. Yazıq Səlimə özünü və körpəsini zəhərləyib öldürdükdən sonra Qurbanın səbri son nöqtəyə çatır, bütün varlığını bürüyən qisas hissi ilə Hafizə xanımı öldürür.

Bütün bu tragik vəziyyətlərdən sonra Qurbanı növbəti dəfə Şamama cadu və Pəri cadunun caynağında görürük. Əcinnələr onu qovub Pərinin hüzuruna gətirdikdən sonra o, əvvəl hər şeyin bitdiyini, xoşbəxtliyə qovuşduğunu zənn edir. Səlimə körpəsi ilə gözünə görünəndə o yenidən özünə gəlir və Pərini öldürür. Özü isə Şamama cadunun caynağında məhv olur.

Əsərdəki sehrli qüvvələr Pərinin qisasçılıq hissinin yardımçısı kimi çıxış etsələr də, «nəfsi əmmarə»nin daha mükəmməl ifşasında əhəmiyyətli rola malikdirlər.

Ə.Haqverdiyev yaradıcılığının özünəməxsusluğu ondadır ki, o güclü tragik vəziyyətlər yaratmaq ustasıdır. Qeyd etdiyimiz kimi teyf, yuxu, cin, şeytan, əcinnə

kimi simvolik obrazlar və yardımçı vasitələrin iştirakı əsərin ideyasının açılmasına xidmət etməklə yanaşı, obrazların ümumi və fərdi xüsusiyyətlərinin təqdiminə də yardım edir. Bu baxımdan Qurban obrazı da yoxsul zümrələrin ağır güzəranının daşıyıcısı kimi ümumiləşmiş tip, eyni zamanda özünəməxsus fərdi cizgiləri ilə seçilən (qüruru, humanizmi, heysiyyəti , zahiri və daxili dünyası və s.) güclü tragik xarakterdir.

«Ağa Məhəmməd şah Qacar» (1907) N.Nərimanovun «Nadir şah»ından sonra ikinci tarixi faciə əsəridir. Müəllif Ağa Məhəmməd şah Qacarı güclü və mürəkkəb bir xarakter səviyyəsinə qaldıra bilmişdir. Onun qaniçənliyi, məkri, ziddiyyətli dünyagörüşü xarakterin canlı və mürəkkəb alınmasına yardımçı olur.

Ə.Haqverdiyev göstərir ki, tarixin özü Qacarın gələcək həyatının tragik istiqamətini müəyyənləşdirir. O, İrana əvvəlki şöhrətini qaytarmaq üçün qəsbkarlıq siyasətini seçir və öz tragik vəziyyətini daha da ağırlaşdırır. Ağa Məhəmməd şah Qacara həsr olunmuş əsərlər içərisində bu əsər daha tarixi və orijinaldır.

Müəllifin özünəməxsus üslubu Qacar surətinin daha təbii, kamil və qüvvətli xarakter kimi təqdiminə səbəb olmuşdur.

Ə.Haqverdiyev milli yazıçı kimi Qacarın qaniçənliyinin, qəsbkarlığının fonunda onun vətənə məhəbbətini, vətən sərhədlərini genişləndirmək, Nadir dövründəki şöhrətini qaytarmaq üçün öz yaxınlarını qurban verməkdən belə çəkinmədiyini bədii boyalarla göstərir və Qacarın güclü tragik xarakterini yaratmış olur.

Eyni varlıqda yaşayan bir-birinə zidd iki qüvvənin çarpışması əsər boyu izlənilir. Bu Qacarın varlığında yaşayan iki əks qüvvədir. Biri parçalanmış vətəni birləşdirmək, ölkədə güclü dövlət qurmaq, onun iqtisadi qüdrətini bərpa etmək istəyən ağıllı, qətiyyətli hökmdar, digəri bütün bəşərə nifrət edib onu qan çanağında boğmağa hazır olan qaniçən despotdur.

Sonda Qacarın qətli işıqlı ideallarla şər qüvvələrin mübarizəsində xeyirin qələbəsi kimi əxlaqi məna kəsb edir və ədalətin təntənəsi kimi səslənir.

Ağa Məhəmməd şah Qacar obrazı ümumiləşdirilmiş bir hökmdar tipi olsa da, güclü xarakterdir.

Ə.Haqverdiyev Qacar obrazında əsasən bu detalları ümumiləşdirmişdir:

a) qüdrətli, cəsarətli bir hökmdardır;
b) qaniçən despotdur;
c) məkrli və hiyləgərdir;
ç) güclü idarəçilik qabiliyyətinə malikdir.

Müəllif Qacarı qeyd etdiyimiz kimi öz fərdi keyfiyyətləri ilə də fərqləndirir:

- parçalanmış İranı birləşdirməyə çalışan ağıllı, qətiyyətli siyasətçidir.
- İranın keçmiş şöhrəti ilə öyünüb onu qaytarmağa çalışan vətənpərvərdir.
- bütün cəhdlərinə baxmayaraq özünü Şah İsmayıl, Şah Abbas səviyyəsində görməyib, onların taxdığı atributları hələ özünə layiq bilməyən təvazökar sərkərdədir.

Ən nəhayət, dünya nemətlərindən məhrum edildiyi üçün özünün şəxsi faciəsinin heyfini bütün cəmiyyətdən, bütün bəşərdən almağa qadir olan və bunu bacaran tragik xarakterdir.

## ƏDƏBİYYAT


1. Haqverdiyev Ə. Seçilmiş əsərləri. 2-ci cilddə, I c. Bakı: Lider, 2005, 500 s.
2. Mütəllimov T. Əbdürrəhimbəy Haqverdiyevin poetikası. Bakı: Yazıçı, 1988. 324 s.
3. Qarayev Y. Azərbaycan ədəbiyyatı. XIX-XX yüzillər. Bakı: Elm, 2002. s.274-277.
4. Əlimirzəyev X. Klassiklərimizin ideal və poetik sənət dünyası. Bakı: Elm və təhsil, 2009, s.183-242.

## ОБОБЩЕНИЕ И ИНДИВИДУАЛИЗАЦИЯ В ТРАГЕДИИ А.АХВЕРДИЕВА

**М.ГАСАНОВА (САРАДЖЛЫ)**

### РЕЗЮМЕ

В статье анализируются аналитические воображения в трагедийном творчестве А.Ахвердиева и оценивается индивидуальный метод творчества автора. В этой трагедии А.Ахвердиев приводит итоги обобщения и индивидуализации в типах и трагических персонажах.

## SPECIALIZATION AND GENERALIZATION IN A.HAQVERDIYEV'S TRAGEDY

**M.HASANOVA (SARAJLI)**

### SUMMARY

A.Haqverdiyev's tragedies are criticized through analytic thinking and the author’s creative style is highly estimated in the article. The personages and tragedy characters are shown as the results of generalization and specialization carried out by A.Haqverdiyev.